# Dağbilici gözəl məkandır




Şabran rayonunda tatların kompakt yaşadığı Dağbilici kəndi dəniz səviyyəsindən 600 metr yüksəklikdə, rayon mərkəzindən 30 kilometr məsafədə yerləşir. Bu kənd dörd bir tərəfdən yaşıllıqlarla əhatə olunub. Baba dağı, Beşbarmaq zirvəsi və Şahdağ buradan aydın görünür. Bulaqlarla da zəngin olan Dağbilici kəndinin yaşı çoxdur. Şamanlıq və türkəçarə ilə məşğul olan qədim tatlara bilicilər deyərdilər. İllər ötdükcə yerli əhali ilə qaynayıb-qarışan tatların qohumluq əlaqələri genişlənmiş, qızları azərbaycanlılarla, azərbaycanlı qızları isə tat gəncləri ilə ailə qurmuşlar.

Dağbilici kəndinin sakinləri Həmzəlilər, Məmmədağlılar, Rəhmanlallahlar və digər müxtəlif şəcərələri ilə tanınırlar. Həmzəlilərin fikrincə, onlar Suriyanın Həmzə şəhərindən buraya köçüblər. Rəhmanlallahlar da ərəb ölkələrindən gəldiklərini bildirirlər. Gənclər ailə qurduqca burada əhalinin də, evlərin də sayı artıb. Bu hesabla Düzbilici, Mumulu, Ləcədi və Taxtalar kəndləri yaranıb. Hər kəndin yaranması isə müəyyən hadisə ilə bağlı olub.

Ləcədi tat dilində acıq etmək, küsmək mənasını verir. Deyilənə görə, Rəhmanlallahlardan biri öz əmisi uşaqlarından küsür (əmisinin qızını istəyən bu gəncə "yox" deyirlər), o da qonşu nəsildən olan bir qızla evlənir və dağın başında yerləşən kəndlərindən aralı yerdə məskən salır. Onun inadkarlığını görənlərin bir qismi həmin yerə köçüb orada yaşamağa başlayırlar. Beləcə yeni ocağın - Ləcədinin əsası qoyulur.

Digər kəndi isə düzəngah yerdə yerləşdiyinə görə Düzbilici adlandırıblar. Son dövrlərdə yaranan kəndlərdən biri də Taxtalardır. Burada təxminən 80-nə yaxın ev var.

Dağbilicilər inanclı insanlardır. Kənddə çoxlu pir var. Burada köhnə qəbirlərin üzərində ərəb əlifbası ilə yazılar diqqəti cəlb edir. Kənd sakini Bayram Ağasiyev bildirdi ki, illər keçdikcə Dağbilici kəndində tat mədəniyyəti formalaşaraq inkişaf edib. Artıq 30 ildən çox fəaliyyət göstərən "Xınayaxdı" folklor ansamblı respublikamızda keçirilən bir çox tədbirlərdə iştirak edir.

"Xınayaxdı" folklor ansamblının üzvləri Bayram və Rəna Ağasiyevlər, Aybəniz Ramazanova, Zaur Ağasiyev, Cəmilə Ağaverdiyeva, Sübhanə Aslanova, Fəxrəndə Ağaverdiyeva və başqaları uzun illərdir ki, kollektivdə çalışırlar. 35 nəfərə yaxın üzvü olan kollektiv bu il üçün folklor nümunələri ilə zəngin olan tat tarixindən yeni nümunələr hazırlayır. Səhnələşdirilən mahnıların çoxu qədim zamanları özündə ehtiva edən əmək nəğmələridir. Ölkəmizin qəhrəmanlıq tarixini əks etdirən səhnə və rəqslər də kollektiv tərəfindən məharətlə ifa edilir. "Yallı" rəqsinin qədim formada ifa edilməsi də "Xınayaxdı"ya məxsusdur.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə dağbilicilər də iştirak etmiş və rəşadət göstərmişlər. Təbəssüm Aslanov, Ömər Nəsirov, Elnur Ağarzayev kənd sakinləri tərəfindən daim yad edilir. Kəndin xeyir-şərində şəhid dağbilicilər anılır, məktəbdə hər ayın bir günü onların ömür yoluna həsr edilir.

Dağbilicilər ərzaq məhsullarının çoxunu özləri əkib-becərir, bir hissəsini rayon ərazisindəki kəndlərdə satır, çox az hallarda başqa yerlərə işləməyə gedirlər.

Kənd qazlaşdırılandan sonra ətraf meşələr genişlənir, yaşıllıqlar artırılır. Odur ki, buralar turistlər üçün də getgedə gözəl və görməli məkana çevrilir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***